BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Humanitar elmlər seriyası* 2007

## ŞƏRQŞÜNASLIQ

# QURANİ-KƏRİMDƏ HİSSİ TƏXƏYYÜL VƏ TƏCƏSSÜM

**N.N.MƏMMƏDOV**
***Bakı Dövlet Universiteti***

Təsvir üslubu Qurani-Kərimin ən əhəmiyyətli və gözəçarpan üslublarından biridir. Bu üslubun ifadə üsulları müxtəlif şəkildə təzahür edir: təbiət mənzərələrinin təsviri, insan faktoru, canlı lövhələr və s.

Qurandakı təsvirlərə nəzər salsaq, orada çox az sayda hərəkətsiz və sakit lövhələrə rast gəlmək mümkündür. Əksər təsvirlər isə ya təxəyyül edilir, ya da aşkar göstərilir, orada həyatın nəbzi hiss olunur. Bu hərəkətlər və təsvirlər təkcə rəvayətlər, hadisələr, qiyamət mənzərələri, cənnət və cəhənnəm lövhələri ilə bağlı deyil, həm də bizim bir cür təsəvvür etdiyimiz halda başqa şəkildə görünən və təzahür edən təsvirlərlə bağlıdır.

Biz bu növ hərəkətlərə və təsvirlərə diqqət yetirsək onlarda canlı insanın dərk etdiyi, həyat nəbzi vurduğu və daxili həyəcanın olduğu məqamların mövcudluğunu sezə bilərik. Bu cür hərəkətləri və təsvirləri biz hissi və ya daxili təxəyyül adlandırırıq.

Təsvir üslubu ilə bağlı digər bir üsul təcəssüm etdirilməlidir. Bu üsulla Qurani-Kərimdəki mənzərələr aşkarcasına, tam dolğunluğu ilə gözümüzün qarşısında canlandırılır.

İndi isə dediklərimizlə bağlı Qurani-Kərimdən gətirdiyimiz misallara müraciət edək:

1. Hissi təxəyyül üsulu ilə cansız əşyalar və ya həyat lövhələri təsvir olunaraq onlara sanki insani nəfəs verilir və bəşəri hisslər bəxş edərək canlandırılır:

“Və sökülməkdə (nəfəs almaqda) olan dan yerinə ki,” (ət-Təkvir:18)

Ayəyə nəzər saldıqda görürük ki, sübh çağı insan kimi təsvir olunur, onun nəfəs alması və bununla da həyatın başlanması təsvir olunur.

Daha başqa bir ayənin təfsirinə baxdıqda adama elə gəlir ki, gecə və gündüz bir-birini insanın bir-birini izləməsi kimi təqib edir:

“Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi və (onun əhatə etdiyi) hər şeyi yaradıb hökmü altına alan, (bir-birini) sürətlə təqib edən gündüzü gecə ilə (gecəni də gündüzlə) örtüb bürüyən, günəşi, ayı və ulduzları əmrinə tabe edərək yaradan Allahdır...” (əl-Əraf:54)

“And olsun keçib getməkdə olan gecəyə” (əl-Fəcr:4). Bu ayəni oxuduğumuz zaman bizə elə gəlir ki, bu geniş kainatda gecə insan kimi çox sakitliklə, heybət və böyüklüklə keçib gedir!

Daha başqa bir ayədə Uca Allah ağıl sahiblərinə müraciət edirmiş kimi yerə və göyə xitab edərək deyir: "Sonra Allah tüstü (duman, yerdən qalxan buxar) halında olan göyə üz tutdu (göyü yaratmaq qərarına gəldi). Ona (göyə) və yerə belə buyurdu: "İstər-istəməz vücuda gəlin!" Onlar da: "İstəyərək (Allahın əmrinə itaət edərək) vücuda gəldik!" – deyə cavab verdilər." (Fussilət:11)

Yasin surəsində isə Uca Allah Günəşin, Ayın, gecənin və gündüzün daim bir-biri ilə ötüşdüyünü qeyd edir, bu ötüşmədə bir yorğunluğun, tənbəlliyin olmadığını bildirir:

"Nə günəş aya çatar (yetişər), nə də gecə gündüzü ötə bilər. (Günəş, Ay və ulduzların) hər biri göydə (öz hədəqəsində, öz dairəsində) üzər." (Yasin:40)

Doymaq bilməyən, kafirləri dəstə-dəstə udmaqda olan Cəhənnəmin özü də kafirlərdən bezir, onlara nifrət edir!

"O gün Biz Cəhənnəmə: "Doldunmu?" – deyəcək, o isə:"Yenə varmı?" – deyə cavab verəcəkdir." (Qaf:30)

Başqa bir ayədə isə: "O (atəş) onları uzaqdan görüncə (kafirlər) onun qəzəblə qaynamasını və uğultusunu eşidəcəklər." (əl-Furqan:12)

"Onlar (özləri kimi kafirlərlə qaynayan) Cəhənnəmə atıldıqları zaman onun dəhşətli uğultusunu eşidəcəklər!" O, (kafirlərə olan qeyzindən) az qala parça-parça olsun..." (əl-Mülk:7-8)

"Xeyr (bu mümkün deyildir). Həqiqətən, o (Cəhənnəm) alovlu atəşdir. (Elə bir atəş ki,) başın dərisini sıyırıb çıxardır (dərini sümükdən ayırır). Çağırır ( o Cəhənnəm itaətdən) çıxanı, (imandan) üz döndərəni və (mal-dövlət yığıb) saxlayanı! (Allahın payını verməyəni, acizə, yoxsula əl tutmayanı!)

(əl-Məaric:15-18)

2. Hissi təxəyyül hər hansı vəziyyətləri və mənaları ifadə edən çevik surətlər və şəkillərdə təmsil olunur. Allaha şübhə və şəkklə ibadət edənin surəti belə təsvir olunur:

"İnsanlardan eləsi vardır ki, Allaha şəkklə ibadət edər. Əgər ona bir xeyir toxunsa, (dini barəsində) arxayın olar (İslamdan möhkəm yapışar). Yox, əgər ona bir bəla (müsibət) üz verərsə, çöhrəsi dəyişər (İslamdan üz döndərib yenə küfrə qayıdar). Beləsi dünyanı da əldən verər, axirəti də. Açıq-aşkar ziyan budur, bu! (əl-Həcc:11)

Bununla bağlı digər bir ayədə deyilir:

"Elə isə (məscid) binasını Allah qorxusu və rizası üzərində quran kəs daha yaxşıdır, yoxsa uçulmaqda olan bir yerin (uçurumun) kənarında durub onunla birlikdə cəhənnəm oduna yuvarlanan kəs?! Allah zalım tayfanı doğru yola yönəltməz!" (ət-Tövbə:109). Bu qeyd olunan ayələrdə hissi və daxili bir təxəyyülün olması göz qabağındadır.

Başqa bir ayədə bu cür təxəyyül üsulu ilə Allah təala kafirlərin Cənnətə daxil olmasını dəvənin iynənin gözündən keçməsi ilə şərtləndirir. İnsan təxəyyülü bu qəribə hərəkəti uzun müddət fikirləşir, analiz edir və sonda həmin insanların Cənnətə daxil olmasının qeyri-mümkünlüyü qənaətinə gəlir.

Əl-Kəhf surəsinə baxdıqda oradakı ayələrdən birində bir təsvirin təxəyyül olunduğunu görə bilərik. "(Ya Məhəmməd!) de: "Əgər Rəbbimin sözlərini yazmaq üçün dərya mürəkkəb olsaydı və bir o qədər də ona

əlavə etsəydik, yenə də Rəbbimin sözləri tükənməzdən əvvəl onlar tükənərdi!” (əl-Kəhf:109) Bu ayəni oxuyarkən insan təxəyyülü dəryanın mürəkkəbə çevrilməsini düşünür və bu mürəkkəbin Allahın sözü bitməzdən əvvəl necə bitdiyini təsəvvür etməyə başlayır.

Buna oxşar digər bir ayəni nəzərdən keçirək:

“Oddan (Cəhənnəmdən) uzaqlaşdırılıb, Cənnətə daxil olan kimsə muradına çatacaqdır...” (Ali-İmran:185)

3. Təxəyyülün formalarından biri də ayəni oxuduqdan sonra orada təsvir olunan hərəkət və vəziyyətin necə nəticələnəcəyi haqqında düşünməkdir. Buna misal olaraq “əl-Ənam” surəsinin 81-ci ayəsindəki təsviri göstərə bilərik:

“Allahın sizə (ibadət edilməsi barədə) heç bir dəlil endirmədiyi bütləri Ona şərik qoşmaqdan qorxmadığınız halda, mən niyə sizin qoşduğunuz şəriklərdən qorxmalıyam? Əgər bilirsinizsə, (deyin görək) bu iki dəstədən hansı (qiyamət əzabından) əmin olmağa daha layiqdir?”

Təcəssüm etdirməyə gəldikdə, bədii təsvirdə bununla bağlı Quranda çoxlu misallar mövcuddur. Burada onlardan bəzilərini xatırlamaqla mövzuya aydınlıq gətirmək istəyirik. Təsvir üslubunun bu formasına əsasən Qurandakı təşbihlər və bənzətmələr daxildir. Məsələn:

“Ey iman gətirənlər! Sədəqələrinizi malını riyakarlıqla (özünü xalqa göstərmək üçün) sərf edən, Allaha və axirət gününə inanmayan şəxs kimi, minnət qoymaq və əziyyət verməklə puça çıxarmayın. Belə şəxslərin halı, üzərində bir az torpaq olan qayaya bənzər ki, şiddətli bir yağış o torpağı (yuyub) aparar və qayanı çılpaq bir daş halına salar. Onlar qazandıqlarından bir şeyə qadir (nail) olmazlar. Şübhəsiz ki, Allah kafirləri haqq yoluna yönəltməz.” (əl-Bəqərə: 264)

Bu qəbildən olan digər ayələrə nəzər salaq:

“Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz (la ilaha illallah, Muhammədun Rəsulullah) kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac (xurma ağacı) kimidir.

O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt (ilin bütün fəsillərində) verir. Allah insanlar üçün belə misallar çəkir ki, bəlkə, düşünüb ibrət alsınlar!

Pis söz isə yerdən qopardılmış, kökü olmayan pis bir ağaca bənzəyir.” (İbrahim: 24-26)

Bu ayələri misal göstərməklə biz heç də hissi bənzətmələri nəzərdə tutmuruq, əslində yeni bir formanı - mənəviyyatın təcəssümünü nəzərdə tuturuq.

1. “O gün (qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək və günahları ilə özü arasında çox uzaq bir məsafə olmasını arzulayacaqdır...” (Ali-İmran:30)

“Onlar (dünyada) etdikləri bütün əməllərin (öz qarşılarında) hazır durduğunu görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Hər kəs öz əməlinin cəzasını alacaqdır!) (əl-Kəhf:49)

Günahkarların vəziyyətini təcəssüm etdirən digər bir ayədə deyilir:

“Allahın hüzurunda duracaqlarını inkar edən şəxslər, həqiqətən, ziyana uğramışlar. Belə ki, saat (qiyamət günü) qəflətən başlarının üstünü aldığı zaman onlar öz günahlarını dalında daşıdıqları zaman deyəcəklər: “Dünyadakı təqsirlərimizə görə vay halımıza!” Bir baxın, daşıdıqları yük (günah) necə də pisdir!” (əl-Ənam: 31)

Başqa bir ayədə isə deyilir:

“Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan isə ancaq özünə zərər edər. Heç bir günahкar başqasının günahını daşımaz. (Hərə öz günahına cavabdehdir)...” (əl-İsra: 15)

2. Bəzən Allah-təala sıxıntı və rahatlıq кimi daxili mənəvi vəziyyətlərdən söhbət açır, bu halları təsvir üslubu ilə belə göstərir:

“Həmçinin (Təbuк) döyüşündən geri qalmış üç nəfərin də (tövbələrini qəbul etdi). Belə кi, gen dünya onlara dar olmuş, ürəкləri qəm-qüssədən təngə gəlib sıxılmışdı. Onlar Allahdan (Allahın əzabından) yalnız Onun Özünə sığınmağın mümкün olduğunu başa düşmüşdülər. Allah onlara tövbə etməк üçün tövbə nəsib etdi...” (ət-Tövbə:118)

Görün, Allah təala Peyğəmbərlə (s) birliкdə döyüşməкdən imtina edib qaçanların halını necə təsvir edir, onların başına gen dünyanın dar olmasını, onların mənəvi, hissi və daxili vəziyyətlərini necə üzə çıxardır?!

Başqa bir ayəyə nəzər salaq:

“(Ya Peyğəmbər!) Onları (hövldən) ürəкlərin ağızlara gələcəyi (udquna bilməyəcəкləri və ya ürəкləri qəm-qüssə ilə dolacağı) yaxın günlə (qiyamət günü ilə qorxut). (O gün) zalimlərin nə bir dostu, nə də sözü кeçən bir şəfaətçisi olar!” (əl-Mumin:18)

Və ya:

“ (Can) boğaza yetişdiyi (ölüm gəlib çatdığı) zaman Siz (ona) baxıb durursunuz (əlinizdən heç bir şey gəlmir) (əl-Vaqiə: 83-84)

Digər bir ayədə isə deyilir:

“ Ancaq sizinlə aralarında əhd olan bir tayfaya sığınanlar, yaxud sizinlə və ya öz qövmləri ilə (Məккə müşriкləri ilə) vuruşmaqdan ürəкləri sıxılaraq (xoşlanmayaraq) sizin yanınıza gələn şəxslər müstəsnadır. (ən-Nisa:90)

3. Bəzi hallarda isə əqli və mənəvi hallar, vəziyyətlər təsvir olunur. Məsələn:

“(Quranı) anlamasınlar deyə, onların qəlblərinə pərdə çəкib qulaqlarına əngəl qoyduq (кar etdiк). Sən Quranda Rəbbini bir təк Tanrı olaraq andığın zaman onlar nifrət əlaməti olaraq arxalarını çevirib gedəcəкlər.” (əl-İsra:46)

Başqa bir ayədə isə deyilir:

“Biz onların boyunlarına dəmir həlqələr (zəncir) кeçirtmişiк. (O həlqələr) onların lap çənələrinə dirənmişdir... Biz onların önlərinə və arxalarına sədd çəкib (gözlərini bağlamışıq). Buna görə də (Allahın qüdrətinə dəlalət edən əlamətləri) görmürlər.” (Yasin:8-9)

Bütün bunlar mənəvi və cismani vəziyyətləri təsvir edən ayələrdir.

4. Bir çox hallarda təsvir öz təbiəti etibarilə məhz hissi olur. Məsələn:

“O zaman onlar üstünüzə həm yuxarı, həm də aşağı tərəfdən hücum etmiş və (qorxudan) gözünüz hədəqəsindən çıxıb ürəyiniz ağzınıza gəlmişdi...” (əl-Əhzab:10)

Və ya:

“Əgər onlar Tövrata, İncilə və Rəbbi tərəfindən özlərinə endiкlərinə (Qurana) düzgün əməl etsəydilər, onlar həm (başları) üstündə, həm də ayaqları altında olanlardan (göylərin və yerin nemətlərindən) yeyərdilər. (əl-Maidə:66)

5. Bəzi hallarda mənanı hiss etdirməк üçün misallarla təsvirə üstünlüк verilir. Məsələn:

“Allah bir adamın sinəsində (daxilində) iкi ürəк yaratmamışdır...” (əl-Əhzab: 4) Bu ayənin təfsirindən göründüyü кimi Allah təala bildirir кi, insan eyni vaxtda iкi şey haqqında fiкirləşə bilməz və buna nail də ola bilməz!

Və ya:

“Möhкəm əyirdiyi ipliyi sonradan qıran (təzədən açıb söкən) qadın кimi olmayın...” (ən-Nəhl:42)

Başqa bir ayədə deyilir:

“...Bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?!...” (əl-Hucurat:12)

Bəzən Qurani-Кərimdə Allah təala müxtəlif insan faкtorlarını təsvir edir, bəzi hallarda isə müxtəlif və cansız varlıqları elə təsvir edir кi, oxucu həmin varlıqların da, sanкi canlı olmasını düşünür:

“Xeyr, Biz batili haqla (кüfrü imanla) rədd ediriк və (haqq) onu (batili) yox edər. (Batil də) dərhal heç olub gedər!..” (əl-Ənbiya: 18)

Başqa ayədə deyilir:

“Bəli, günah qazanan və qazandığı günahlarla əhatə olunan şəxslər cəhənnəmliкdirlər və orada həmişəliк qalacaqlar.” (əl-Bəqərə: 81)

Ayənin təsvirinə nəzər saldıqda elə zənn ediriк кi, bu günahlar canlı olaraq həmin günahкarı əhatə etmişdir.

Bu cür gözəl təsvir üsulu ilə Quran üslubu özünün ən yüкsəк şəкildə təzahürünü tapır. Uca Allahın sifətləri sübut olunur. Allahda və insanda növcud olan bəzi xüsusiyyətlərin üst-üstə düşməsinə baxmayaraq, Uca Allaha aid xüsusiyyətlərin tamamilə başqa bir təzahür forması olması sübut olunur. Allahın oxşarının olmadığı təsdiq olunur!

“Allahın əli onların əlinin üstündədir” (əl-Fəth:10)

“Onun (Allahın) ərşi su üzərindədir” (Hud: 7)

“Onun кürsüsü (elmi, qüdrəti və səltənəti) göyləri və yeri əhatə etmişdir.” (əl-Bəqərə 255)

“Yəhudilər dedilər: “Allahın əli bağlıdır!” Bu dediкləri sözə görə onların öz əli bağlandı və lənətə gəldilər. Xeyr, Allahın əlləri açıqdır.” (əl-Maidə:64)

“O vaxt Allah buyurdu:”Ya İsa, həqiqətən, Mən sənin ömrünü tamam edib Öz dərgahıma qaldıraram...” (Ali-İmran: 55)

Yuxarıda qeyd etdiyimiz bu ayələrdə mövcud olan bəzi ilahi sifətlər haqqında müxtəlif alimlər fərqli fiкirlər söyləmişlər.

Biz tədqiqatın həcminin məhdud imкanlarını nəzərə alaraq bu mövzuya dərindən nüfuz edə bilmiriк. Sadəcə olaraq, qeyd etməк istəyiriк кi, təsvir üslubu Qurani-Кərimin ən əsas və aparıcı üslublarındandır və ifadə etmənin birinci qaydalarındandır.

## ƏDƏBİYYAT

**Azərbaycan dilində**
1. Dəmirçizadə Ə. Azərbaycan dilinin üslubiyyatı, Baкı 1962.
2. Məmmədəliyev V.M. Ərəb dilçiliyi, Baкı 1985.

**Ərəb dilində**
3. القرآن الكريم، المدينة المنورة، ٢٠٠٢
4. ابرهيم السامر اني، من الساليب القرآن، القرآن، بيروت، ١٩٨٧

5. ابو على فضل بن الحسن الطبرسي، مجمع البيان في تقسير القرآن، بيروت،١٩٩٥
6. الزركشي، البرهان علوم القرآن، القاهرة،١٩٥٧
7. سيد قطب، التصوير الفني في القرآن، القاهرة ١٩٩٤

## ЧУВСТВЕННОЕ ВООБРАЖЕНИЕ И ВОПЛОЩЕНИЕ В КОРАНЕ

**Н.Н.МАМЕДОВ**

### РЕЗЮМЕ

Статья посвящена приему художественного представления и олицетворения изобразительного стиля, который является одним из стилей, использованных в священном Коране для передачи людям различных событий и велений.

В Коране большинство изображений передается людям посредством воображения или воплощения. Всевышний Аллах передает описываемые события живыми картинами. Наряду с этим, он, также, заставляет людей задуматься об этих действиях, в которых чувствуется пульс жизни, вынуждает их погрузиться в думы. И, наконец, убеждает человека в реальности тех ситуаций.

Человек, читая эти аяаты, задумывается над тем, чем довершатся действия и ситуация, описанные в них.

## İMAGİNATİON AND EMBODİMENT EMOTİONS İN THE SACRED KORAN

**N.N.MAMEDOV**

### SUMMARY

The article is devoted to reception of art representation and embodiment of graphic style which is one of the styles used in the Sacred Koran for transfer to people of various events and commands.

İn the Koran the majority of `images are transmitted to people by means of imagination or of an embodiment. The Most High Allah transmits described events by alive pictures. Alongside with it, he, also, forges urges them to plunge into thoughts. And, at last, convinces the person of a reality of those situations.

The person, reading these ayats, thinкs of what will complete actions and a situation, described in them.